# Fiziki məhdudluqdan yaradıcı ənginliyə



**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən Azərbaycan Milli Xalça Muzeyində əlilliyi olan qabiliyyətli şəxslərin fəaliyyətinin ictimaiyyətə təqdimatı, eyni zamanda, onların əl işlərinin satışına dəstək məqsədilə "İstedad sərhədsizdir" adlı satış-sərgi təşkil edilib.**

...Dünyanın daha rəngarəng və gözəl olması insanların öz əlindədir. Yaxşı düşünən yaxşı da görür, duyur və ətrafa müsbət enerji saçır. Muzeyə daxil olduğum andan sağlamlığı əngəlli olan, amma həyatsevər şəxslər üçün yaradılmış şəraiti görüncə bu qənaətə gəldim. Sərgidə nümayiş etdirilən suvenirlər, ağac üzərində oymalar, xalçaçılıq, tikmə və toxuma nümunələri, rəsmlər, bəzək əşyaları, aksesuarlar və digər əl işləri onların fantaziyasının hüdudsuzluğundan soraq verir, adama nağıllar aləmini xatırladırdı.

Öz əsərlərini nümayiş etdirməkdən zövq alan bu insanlara baxdıqca düşündüm ki, çox şey istəmirlər. Adi diqqət, maraq və səmimi ünsiyyət bəsləridir. Onları dinləmək, anlamaq və iç dünyalarına baş vurmaq, hər birinə mənəvi yardım göstərmək gərəkdir.

Muzeyə gələn şəhər sakinləri əl işlərinə baxır, onların yaradıcılarına suallar verir, bəyəndikləri əşyaları, suvenirləri alırdılar. Mən də fürsətdən istifadə edib gözəllikləri ərsəyə gətirənlərdən birinin – gənc rəssam Fuad Musayevin işləri ilə maraqlandım. Gözəl təbiət mənzərələri, natürmotlar çəkib. Özünün nitq qüsuru olduğu üçün anası Aynur Musayeva onun haqqında danışaraq dedi ki, Fuad Rəssamlıq Akademiyasında oxuyur. Xalq rəssamı Arif Hüseynovun tələbəsidir. Rəsmlərin satışından əldə olunan vəsait xeyriyyə məqsədilə istifadə ediləcək. Özü belə istəyir.

Sərgiyə qatılmış digər həssas qrup nümayəndəsi – Zümrüd Xalıqova isə sərginin onlar üçün xüsusi anlam daşıdığını qeyd etdi.

– Belə sərgilər əl işlərinin satışından daha çox, bizə şəxsi qabiliyyət və bacarıqlarımızı nümayiş etdirmək üçün imkan yaradır. Hər birimizə daha çox mənəvi stimul verir. Odur ki, sərginin təşkilatçılarına sonsuz təşəkkürümü bildirirəm.

"Əlilliyi olan Şəxslərə Sosial Dəstək" İctimai Birliyinin sədri Təranə Musayeva bildirdi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə cəmiyyətin qayğı uman qisminə daha çox diqqət göstərilməyə başlanıb. Bu sərginin məqsədlərindən biri də həssas qrupdan olan insanların ayrı-seçkiliyə məruz qalmamaları üçün maarifləndirmə işlərinin aparılması ilə yanaşı, onların qabiliyyət və bacarığının üzə çıxarılması və əmək bazarına verdikləri töhfənin tanınmasına kömək göstərməkdir.

Sərgidə Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli, Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli, "Qadın Əlillər" Cəmiyyətinin sədri Məhluqə Rəhimova çıxış etdilər. Natiqlər bildirdilər ki, bu gün dövlətimiz tərəfindən bu siyasət uğurla davam etdirilir. Bu işdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun köməkliyi ilə əlillər üçün xüsusi mərkəzlər tikilir, onların vaxtaşırı zəruri ehtiyacları ödənilir və bir çox digər xeyirxah işlər görülür.

Tədbirin bədii hissəsində fiziki məhdudiyyətli şəxslər üçün video-çarx nümayiş etdirildi, onların ifasında şeirlər səsləndirildi. Sərgini zəngin təəssüratla tərk etdik. Sevindik ki, ürəklərimizin onlarla bir vurduğunu göstərə bildik.

Əziz oxucu, eyni xoş hissləri yaşamaq istəyirsinizsə, siz də ora gedin. Sərgi dekabrın 8-dək davam edəcək.

***Elçin ABBASOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 8 dekabr.- S.10.